Mədəni-maarif.- 2016.-№1.- S.2



## Elçin
# "Poçt şöbəsində xəyal"

C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyorları tərəfindən oynanılan tamaşanın quruluşçu rejissoru Firudin Məhərrəmov, rəssamı Nabat Səmədova, musiqi tərtibatçısı əməkdar incəsənət xadimi Cavanşir Quliyevdir. Baş rollarda Elnarə Heydərova (Ədilə), Vüsal Mehrəliyev (Kişi) çıxış edir. Digər rollarda xalq artisti Arif Quliyev, əməkdar artist Süleyman Nəcəfov, Tünzalə Əliyeva, Vaqif Kərimov, Niyaməddin Səfərəliyev, Elnur Hüseynov və Zəhra Baxşəliyeva iştirak edirlər.

Süjet xəttinə əsasən hadisələr poçt şöbəsində cərəyan edir. Poçt işçisi Ədilə hər gün xəyallar aləmində olur. Onun xəyalındakı Kişi obrazı hər kəsi ədalət məhkəməsinə çəkərək qüsurlarını göstərib, yalandan uzaq durmağa səsləyir. Getdikcə Ədilənin xəyalları onu rahat buraxmır. Buna görə də işdən çıxmaq qərarına gəlir. Beləcə, o ətrafındakı yalançılardan qaçmağa çalışır.

Bununla da müəllif yalanın daim daxildə yaşadığını və insanların xəyallarda daha saf olduğunu göstərmək istəyir. Tamaşa psixoloji-lirik janrdadır.







